1799(2007) saylı tövsiyə

# Reklamda qadınların imici

Müəllif(lər): Parlament Assambleyası

Mənbə - 26 iyun 2007-ci ildə Assambleyada (21-ci iclasda) müzakirə edilib (bax: Doc. 11286, Qadınlar və kişilər üçün bərabər imkanlar üzrə komitənin məruzəsi; məruzəçi: xanım Bilgehan). Sənəd 26 iyun 2007-ci ildə Assambleyada tərəfindən (21-ci iclasda) qəbul edilib

1. Parlament Assambleyası "Reklamda qadınların imici haqqında" 1557(2007) qətnaməsinə istinad edir və Nazirlər Komitəsindən xahiş edir ki, üzv dövlətlər tərəfindən onun icra olunmasını təmin etsin.

2. O, Nazirlər Komitəsindən xahiş edir ki, reklamlarda qadın və kişilərin imicinin necə əks olunduğunun dərindən araşdırılması üçün beynəlxalq ekspertlər komitəsi təyin etsin.

3. Bu araşdırmanın nəticələri əsasında Nazirlər Komitəsindən xahiş ediləcəkdir ki, reklamçıları imicləri təqdim edərkən ayrı-seçkiliyə yol verməməyə və qadınlarla kişilərin ləyaqətinə hörmət etməyə təşviq edən Avropa davranış məcəlləsini hazırlasın.

4. Assambleya həmçinin Nazirlər Komitəsindən aşağıdakıları xahiş edir:

4.1. cinsiyyətçi stereotipləri ən səmərəli şəkildə dağıdan və qadınlarla kişilər arasında bərabərliyi təşviq edən reklam kampaniyasına təqdim edilən Avropa mükafatını təsis etsin;

4.2. üzv dövlətlərin hökumətlərini ictimaiyyətin cinsiyyətçi və ya zorakı xarakterli reklamlar barədə məlumatlılığının artırılmasına yönələn milli kampaniyalar təşkil etməyə və belə reklamlara qarşı cavab tədbirləri təklif etməyə çağırsın.

---

*Avropa Şurasının "Azərbaycanda gender bərabərliyi və media azadlığı" layihəsi çərçivəsində Azərbaycan dilinə tərcümə edilmişdir, tərcümədən məsuliyyəti tərçüməçi daşıyır.*